# Aksizlərə edilmiş dəyişikliklər barədə

Vergi Məcəlləsinin aksizlərə aid 185.1-ci, 185.2-ci (1-ci bəndi), 188.1.1-ci, 190.2-ci, 190.3.1-190.3.7-ci və 190.4-cü maddələrinə müvafiq dəyişiklik edilmiş, 185.2-ci və 190.1-ci maddələrinə yeni bəndlər, 188.1.5-ci və 190.3.8-ci yeni maddələr əlavə edilmişdir.

Qeyd olunmuş əlavə və dəyişikliklərə əsasən platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza idxalda aksiz tətbiq olunacaq.

Bununla yanaşı, fiziki şəxsin fərdi istehlakı üçün 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş 0,5 karat almazın idxalı aksizdən azaddır.

**Aksizli mallara aşağıdakı aksiz dərəcəsi tətbiq ediləcəkdir:**

a) idxal olunan platinin hər qramına görə 2 manat;

b) idxal olunan qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının min (1000) çəki vahidindəki miqdarına görə:



| 1000 çəki vahidində qızılın miqdarı | Hər qrama görə aksizin dərəcəsi |
|---|---|
| 375 | 0,8 manat |
| 500 | 1 manat |
| 585 | 1,2 manat |
| 750 | 1,5 manat |
| 958 | 1,8 manat |
| 999 | 2 manat |

**Qeyd:** Hesablama zamanı fiziki şəxsin fərdi istehlakı üçün idxal edilən 20 qram qızılın aksiz vergisindən azad edilməsi nəzərə alınır.

c) idxal olunan emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatı üçün 200 manat (aksiz dərəcəsi) olmaqla, aşağıdakı qaydada hesablanır:




| Almazın bir ədədinin çəkisi (karatı) | Aksizin dərəcəsinin əmsalı |
|---|---|
| 1 karatdan aşağı olduqda | 200 manat x faktiki çəki |
| 1-dən 2-dək olduqda | 200 manat x faktiki çəki x 2 əmsal |
| 2-dən 3-dək olduqda | 200 manat x faktiki çəki x 3 əmsal |
| 3-dən 4-dək olduqda | 200 manat x faktiki çəki x 4 əmsal |
| 4-dən 5-dək olduqda | 200 manat x faktiki çəki x 5 əmsal |
| 5-dən yuxarı olduqda | 200 manat x faktiki çəki x 10 əmsal |

**Qeyd:** Hesablama zamanı fiziki şəxsin fərdi istehlakı üçün idxal edilən 0,5 karat almazın aksiz vergisindən azad edilməsi nəzərə alınır.

ç) minik avtomobillərinin mühərrikinin həcminə mütənasib olaraq tətbiq edilən aksiz dərəcələri:



| Mühərrikin həcmi | Aksizin dərəcəsi | |
|---|---|---|
| | Dəyişiklikdən əvvəl | Dəyişiklikdən sonra |
| 2000 $sm^3$-dək olduqda | hər 1 $sm^3$ 0,15 manat | hər 1 $sm^3$ 0,2 manat |
| 3000 $sm^3$-dək olduqda | 300 manat +2001 $sm^3$-dən başlayaraq hər 1 $sm^3$ görə 1 manat | 400 manat+2001 $sm^3$-dən başlayaraq hər 1 $sm^3$ görə 1,5 manat |
| 4000 kub $sm^3$-dək olduqda | 1300 manat+3001 $sm^3$-dən başlayaraq hər 1 $sm^3$ görə 2 manat | 1900 manat+3001 sm3- dən başlayaraq hər 1 $sm^3$ görə 4 manat |
| 5000 kub $sm^3$-dək olduqda | 3300 manat+ 4000 $sm^3$- dən çox hissəsi üçün hər $sm^3$ görə- 4 manat | 5900 manat+4001 $sm^3$-dən çox hissəsi üçün hər $sm^3$ görə-8 manat |
| 5000 kub $sm^3$-dən çox olduqda | - | 13900 manat +5000 $sm^3$-dən çox hissəsi üçün hər $sm^3$ görə - 10 manat |
| istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr | 1 $sm^3$ görə 1 manat | 1 $sm^3$ görə 3 manat |

Misal

1. Mühərrikinin həcmi 2400 $sm^3$ olan avtomobilə görə ödəniləcək aksiz:
400 + (2400-2000) x 1,5 manat = 1000 manat

2. Mühərrikinin həcmi 4000 $sm^3$ olan avtomobilə görə ödəniləcək aksiz:
1900 + (4000 - 3000) x 4 manat = 5900 manat

3. Mühərrikinin həcmi 2000 $sm^3$ olan idman yaxtasına görə ödəniləcək aksiz:
2000 x 3 manat = 6000 manat

d) içməli spirtə, pivəyə, spirtli içkilərə və tütün məmulatlarına tətbiq edilən aksiz dərəcələri:



| Məhsullar | Aksizin dərəcəsi | |
|---|---|---|
| | Dəyişiklikdən əvvəl | Dəyişiklikdən sonra |
| içməli spirt (o cümlədən tərkibində 80%-dən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 %-dən az spirt olan denaturlaşdırılmamış etil spirti) | hər litrinə 80 qəpik | hər litrinə 2 manat |
| araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatları | hər litrinə 50 qəpik | hər litrinə 2 manat |
| konyak və konyak materialları | hər litrinə 20 qəpik | hər litrinə 6 manat |
| şampan şərabı | hər litrinə 20 qəpik | hər litrinə 2,5 manat |
| şərablar və şərab materialları | hər litrinə 10 qəpik | hər litrinə 10 qəpik |
| pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilər | hər litrinə 8 qəpik | hər litrinə 20 qəpik |
| siqarlar, ucları kəsilən siqarlar və siqarilla (nazik siqarlar) | 12,5 faiz | 1000 ədədinə 10 manat |
| tütündən hazırlanan siqaretlər və onun əvəzediciləri | | 1000 ədədinə 4 manat |

Misal

1. Vergi ödəyicisi 6000 litr şampan şərabı istehsal edir. Bu halda ödəniləcək aksizin məbləği aşağıdakı kimi olacaqdır:

6000 litr x 2,5 manat = 15000 manat

2. Vergi ödəyicisi 1000 (200000 ədəd) blok siqaret istehsal edir. 1 blokda 10 qutu, hər qutuda 20 siqaret var. Bu halda ödəniləcək aksizin məbləği aşağıdakı kimi olacaqdır:
200000/1000 x 4 = 800 manat

**Qeyd:** Hesablama zamanı fiziki şəxsin fərdi istehlakı üçün idxal edilən 3 litr alkoqollu içkinin aksiz vergisindən azad edilməsi nəzərə alınır.

# Balaca Fatimə «müsahibə alarkən».

***Foto-etüd S. Umuyevindir.***





## Təbrik edirik!

**Əzizimiz Ömər!**

**Bir yaşın münasibətilə səni təbrik edirik! Arzu edirik böyük kişi olasan, Sənə cansağlığı, uzun ömür, həyatda xoşbəxtlik və səadət arzulayırıq. Doğmaların və əzizlərin qoy həmişə səninlə fəxr etsin.**

**Babaların Bahadur, Şahin, nənələrin Qəmər, Hafizə, atan Əlixan, anan Şəhanə.**

## Elan

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixli 11 saylı qərarla Topbağ kənd sakini Ağayev Rasim Sədi oğlunun və ailə üzvlərinin adına verilmiş JN 062 A nömrəli (kod 40607058) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

*Redaktor O. Ə. Məmmədov.*

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Məsul növbətçi: Q. C. Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56. Redaktor: (024)20 5-19-14. Ümumi: (024)20 5-15-56. e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir. Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.